

## “Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 avqust 2026-cı il №56 (3058) https://mod.gov.az Qiymətı 30 qəpik


**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:**

*“Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq”.*

## Azərbaycan Ordusunun Zəfər salnaməsi



Azərbaycan Ordusu müstəqil dövlətimizin ən mühüm dayaqlarından biri kimi formalaşaraq, qısa tarixi dövr ərzində böyük inkişaf yolu keçib. Bu inkişafın əsasında xalq-ordu birliyi, dövlətin hərbi siyasi iradəsi və güclü vətənpərvərlik hissi dayanır.

1991-ci ildə çətin şəraitdə formalaşan Azərbaycan Ordusunun zamanla təşkilatlanaraq dövlətçiliyin qorunmasında əsas qüvvəyə çevrilib. Həmin dövr ordunun bünövrəsinin qoyulduğu il kimi tarixə düşüb. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə ordu quruculuğu sistemli və məqsədyönlü xarakter aldı. Hərbi intizamın gücləndirilməsi, peşəkar kadrların hazırlanması və dövlət nəzarətinin təmin edilməsi ordunun inkişafında dönüş nöqtəsi oldu.

2003-cü ildən bəri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu müasir silah-sursatla təchiz olundu. Yüksək döyüş hazırlığı və çevik idarəetmə sistemi ordumuzun gücünü daha da artırdı. Azərbaycan Ordusunun güclənməsi təkcə texniki təminatla məhdudlaşmadı, eyni zamanda, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına da xüsusi diqqət yetirildi. Vətənə sədaqət ruhu hər bir hərbi qulluqçunun əsas amalına çevrildi.

**(Ardı 3-cü səhifədə)**

## ANAMA: Ötən həftə 132 mina aşkarlanaraq zərərsizləşdirilib




Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən avqustun 10-16-da icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 107, tank əleyhinə 25 mina və 614 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 1700,4 hektar ərazi mina və partlamamış digər hərbi sursatdan təmizlənib.

### Azərbaycan Respublikası Müdafiə Nazirliyinin büdcədən maliyyələşdirilən hərbi hissələrində dövlət qulluqçusu olmayan mülki işçilərinin əməyinin ödənilməsi sisteminin, növlərinin və məbləğlərinin müəyyən edilməsi Qaydaları”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

“Azərbaycan Respublikasının Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının 2-ci hissəsinin beşinci abzasına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin büdcədən maliyyələşdirilən hərbi hissələrində dövlət qulluqçusu olmayan mülki işçilərinin əməyinin ödənilməsi sisteminin, növlərinin və məbləğlərinin müəyyən edilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

3. Bu Qərar 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**
**Bakı şəhəri,**
**17 avqust 2026-cı il**
**№ 259**

## Şəhidlərimiz Vətən sevgisinin ali nümunəsidirlər

Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların keçdiyi şərəfli həyat və döyüş yolunun gənc nəslə çatdırılması, Vətən qarşısında göstərdikləri qəhrəmanlığın daim diqqətdə saxlanılması Azərbaycan dövlətinin həyata keçirdiyi mühüm istiqamətlərdəndir. Xalqımız torpaqlarımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəmanların xatirəsini hər zaman böyük ehtiramla yad edir. Bu məqsədlə respublikanın müxtəlif bölgələrində, hərbi hissələrdə və ictimaiyyətin iştirakı ilə mütəmadi olaraq anım mərasimləri, görüşlər və digər tədbirlər keçirilir. Belə tədbirlər həm şəhidlərin əziz xatirəsinə ehtiramın ifadəsi, həm də onların göstərdiyi qəhrəmanlığın gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu qəhrəmanlıq salnaməsinin parlaq səhifələrindən biri də Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun həyat və döyüş yoludur.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində torpaqlarımızın müdafiəsi uğrunda şəhid olan Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun 70 illik yubileyinə həsr olunmuş anım tədbiri keçirildi.

Tədbirdə Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi uğrunda şəhid olan qəhrəmanların xatirəsinə göstərilən ehtiram bir daha nümayiş etdirildi. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.



**(Ardı 6-cı səhifədə)**

## Azərbaycan ilə Gürcüstan arasında müdafiə sahəsində əməkdaşlıq müzakirə olunub



Gürcüstan Baş nazirinin müavini, müdafiə naziri İrakli Çikovani Azərbaycanın ölkədəki səfiri Faiq Quliyev ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstan Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, görüş zamanı Azərbaycan diplomatı yeni müdafiə attaşesi, polkovnik Arzu Həsənovu Gürcüstanın müdafiə nazirinə təqdim edib.

Görüşdə İrakli Çikovani regionun təhlükəsizliyinin təmin olunması baxımından Gürcüstan və Azərbaycan arasında mövcud strateji tərəfdaşlığın əhəmiyyətini vurğulayıb.

O, Cənubi Qafqazda sülhün, sabitliyin və uzunmüddətli inkişafın təmin olunmasında Gürcüstanın rolunu xüsusi qeyd edib.

Tərəflər, həmçinin müdafiə sahəsində ikitərəfli və üçtərəfli əməkdaşlıq formatları çərçivəsində nəzərdə tutulan məsələləri müzakirə ediblər.

# General-mayor Abbasəli Novruzov Hərbi Memorial Məzarlıqda torpağa tapşırılıb





Avqustun 17-də general-mayor Abbasəli Novruzov Hərbi Memorial Məzarlıqda dəfn edilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev, müdafiə naziri general-polkovnik Zakir Həsənov, DSX-nin və Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyət nümayəndələri, mərhumun ailə üzvləri və yaxınları iştirak ediblər.

Mərasimdə tabutun büküldüyü üçrəngli Azərbaycan Bayrağı mərhumun oğluna təqdim olunub.

Daha sonra Azərbaycanın Dövlət Himni səsləndirilib, hərbi şərəf və ehtiram nişanı olaraq, tabut məzara qoyulduqdan sonra fəxri qarovul tərəfindən havaya üç dəfə yaylım atəşi açılıb.

General-mayorun ruhuna dualar oxunub, məzarı üzərinə tər güllər düzülüb, əkliллər qoyulub.

DSX-nin rəisi general-polkovnik Elçin Quliyev Abbasəli Novruzovun Vətənə sədaqətli və dövlətə xidmət prinsipinə sadiq zabit olduğunu bildirib. O, general-mayorun yüksək peşəkarlığını, məsuliyyətli xidmət yolunu və Vətən qarşısındakı xidmətlərini xüsusi qeyd edib. Elçin Quliyev onun hər bir hərbi qulluqçu üçün nümunəvi zabit olduğunu vurğulayıb.

Dəfn mərasimindən sonra media nümayəndələrinə müsahibəsində mərhumun oğlu Anar Novruzov atasının bütün həyatını Vətənə və dövlətə xidmətə həsr etdiyini, sərhədçi və hərbçi kimi şərəfli və məsuliyyətli xidmət yolu keçdiyini deyib. O, atasının keçdiyi xidmət yolunun hərbçilər üçün örnək olduğunu vurğulayıb.



Bildirib ki, Vətənə sədaqətlə xidmət etmək, hərbi peşənin şərəfini qorumaq və üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək hər bir hərbçi üçün böyük məsuliyyətdir. Anar Novruzov bütün hərbçilərimizin bu şərəfli yolu ləyaqətlə davam etdirəcəyinə əminliyini ifadə edib, şəhidlərimizin ruhuna rəhmət, qazilərimizə isə cansağlığı arzulayıb.

General-mayor Abbasəli Novruzovun qohumu, ehtiyatda olan zabit, polkovnik-leytenant Qurbanəli Cəfərov onun vətənpərvər, xalqını və el-obasını sevən, peşəkar və dövlətçiliyə sədaqətli hərbçi olduğunu vurğulayıb. Abbasəli Novruzovun Ulu Öndər Heydər Əliyevin etimad göstərdiyi zabitlərdən biri olduğunu qeyd edən Q.Cəfərov mərhum general-mayorun xidmətlərinin dövlət tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Qeyd edək ki, Azərbaycan sərhəd mühafizəsinin inkişafında mühüm xidmətləri olmuş, uzun illər dövlət sərhədlərinin etibarlı mühafizəsinə şərəflə xidmət etmiş, Azərbaycanın milli təhlükəsizlik nazirinin müavini – Sərhəd Qoşunlarının komandanı vəzifəsində çalışmış general-mayor Abbasəli Ramazan oğlu Novruzov 1937-ci il mayın 25-də Qərbi Azərbaycanın Əzizbəyov rayonunun Zeytə kəndində anadan olub.

Həyatının böyük hissəsini sərhədçi peşəsinə həsr edən Abbasəli Novruzovun hərbi xidmət yolu sıravi əsgər kimi başlayıb, yüksək peşəkarlığı, zəngin təcrübəsi, prinsipiallığı və Vətənə sədaqəti sayəsində məsul vəzifələrədək yüksəlib. SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Sərhəd Məktəbinin hüquq bölməsini, daha sonra Dövlət Təhlükəsizlik Akademiyasını bitirib, hüquqşünas, hərbi tərcüməçi və əməliyyatçı kimi xidmət edib.

Peşəkar fəaliyyətinə və hüquq sahəsində xidmətlərinə görə 1979-cu ildə "Azərbaycan SSR əməkdar hüquqşünası" fəxri adına, həmçinin "SSRİ DTK-nin fəxri əməkdaşı" adına layiq görülüb.

Müstəqilliyimizin ilk illərində, dövlət sərhədlərinin mühafizəsinin möhkəmləndirilməsinin, milli sərhəd mühafizə sisteminin formalaşdırılmasının və Sərhəd Qoşunlarında idarəetmənin təkmilləşdirilməsinin xüsusi əhəmiyyət daşıdığı bir dövrdə Ümummilli Lider Heydər Əliyevin qərarı ilə Abbasəli Novruzov 1994-cü il aprelin 8-də Azərbaycanın milli təhlükəsizlik nazirinin müavini – Sərhəd Qoşunlarının komandanı vəzifəsinə təyin edilib.

Azərbaycanın müstəqil dövlət olaraq öz sərhədlərini milli qüvvələri hesabına qoruması prinsipini ardıcıl müdafiə edən Abbasəli Novruzov beynəlxalq və regional görüşlərdə ölkəmizin dövlətçilik maraqlarını qətiyyətlə ifadə edib. Onun "Azərbaycan müstəqil dövlətdir, öz sərhədlərini özü qorumalıdır" mövqeyi müstəqil milli sərhəd mühafizə sisteminin qurulmasına yanaşmasının əsas mahiyyətini əks etdirib və Azərbaycanın xüsusi xidmət orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə, dövlət təhlükəsizliyinin, sərhədlərimizin etibarlı mühafizəsinin təmin olunmasında xidmətlərinə görə "Şöhrət" ordeni və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

General-mayor Abbasəli Novruzov avqustun 16-da ömrünün 90-cı ilində vəfat edib.

Abbasəli Novruzovun uzun və şərəfli xidmət yolu, dövlət sərhədlərimizin mühafizəsinin təşkilində göstərdiyi xidmətlər və Azərbaycan sərhədçisinin peşəkar ənənələrinin formalaşmasına verdiyi töhfələr daim ehtiramla xatırlanacaq. Onun əziz xatirəsi onu tanıyanların, silahdaşlarının və sərhədçilərin qəlbində daim yaşayacaq.

# Hərbi xidmətdən əbədi dostluğa



"N" hərbi hissəsində əsgərlərin gündəlik fəaliyyəti xidmət qaydalarına uyğun davam edir. Gün ərzində qarşıya qoyulan vəzifələr yerinə yetirilir. Asudə vaxtlarda isə əsgərlər bir araya gəlir, söhbətləşir, kitablar oxuyur, gündəlik həyatın müxtəlif məqamlarından danışırlar. Birlikdə keçirilən vaxt onların bir-birini daha yaxından tanımasına, münasibətlərinin tədricən formalaşmasına imkan verir.

Müşahidələrimiz zamanı matroslar Murad Zaur oğlu Xəlilov, Elşən İntiqam oğlu Abbasov və İbrahim Elman oğlu Əhmədovun ünsiyyəti də diqqətimizi çəkdi. Söhbət zamanı hər üçü rahat danışır, bir-birinin fikrini dinləyir, mövzuya uyğun olaraq söhbətə qoşulurdu. Görünən o idi ki, onları bir araya gətirən yalnız eyni kollektivdə xidmət etmələri deyil. Artıq gündəlik ünsiyyətin yaratdığı müəyyən yaxınlıq da var.

Söhbətə Murad Xəlilovun fikirləri ilə başlayırıq. 2008-ci il təvəllüdlü matros üçün bir yerdə keçirilən vaxtın ən maraqlı tərəfi insanları tanımaqdır: "Əvvəlcə bir-birimizi o qədər də yaxşı tanımırıq. Sonra söhbət etdikcə görürsən ki, kimin həyata marağı, nəyə münasibəti necədir. Asudə vaxtlarımızda söhbət edir, ailələrimizdən, gündəlik həyatdan danışırıq. Belə olan halda yoldaşını daha yaxşı tanıyırsan".

Ali təhsilli müsahibim, 2003-cü il təvəllüdlü Elşən Abbasov Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Maşın mühəndisliyi" ixtisası üzrə bakalavr təhsili alıb.

Onun fikrincə, eyni kollektivdə müxtəlif xarakterli insanlarla bir arada olmaq qarşılıqlı anlaşma tələb edir: "Hər adamın xarakteri bir cürdür. Kimləsə tez ünsiyyət qurursan, kimləsə də bir az vaxt keçirəndən sonra. Əsas odur ki, bir-birini başa düşəsən. Məncə, münasibət də elə bununla formalaşır. Bir müddət sonra artıq yanında olan insanın xasiyyətini bilirsən və ünsiyyət daha rahat olur".

Söhbətin gedişində digər müsahibim İbrahim Əhmədov da fikirlərini bölüşdü. İbrahim üçün isə münasibətdə ən vacib məqam insanın qarşısındakına verdiyi dəyərdir: "Mənim üçün yaxşı yoldaşlıq o deməkdir ki, bir-birinə qarşı normal münasibətin olsun. Yoldaşının fikrinə hörmət edəsən. Xidmət yoldaşlarımla asudə vaxtlarımızda söhbət edirik, bir-birimizi daha yaxşı tanıyırıq. Dostluq da birdən yaranmır, zaman keçdikcə formalaşır".

Müsahibələr zamanı diqqətimizi çəkən məqamlardan biri də onların dostluq anlayışına yanaşmasının fərqli olmasıdır. Birinin fikrində ünsiyyət, digərinin yanaşmasında qarşılıqlı anlaşma, başqa birinin sözlərində isə zaman amili ön plana çıxır. Buna baxmayaraq, söhbətlərinin ortaq nöqtəsi birdir – münasibətdə səmimiyyət. Asudə vaxtlarında söhbət üçün mövzuları da çox uzaqda axtarmırlar. Ailə, doğma yerlər, təhsil, gündəlik həyat... Bəzən bir mövzu digərini əvəz edir və söhbət uzanır. Belə məqamlar xidmət yoldaşlarının bir-birini daha yaxından tanımasına şərait yaradır.

Söhbət başa çatdıqdan sonra bir daha həmin mənzərəyə nəzər salırıq. Eyni kollektivdə xidmət edən üç fərqli insan – ayrı xarakter, ayrı həyat yolu, ayrı dünya görüşü. Amma gündəlik xidmət onları bir araya gətirib. Bu birliyin içində adi söhbətlər, qarşılıqlı maraq və yoldaşlıq münasibəti formalaşır. Əslində, dostluğun başlanğıcını da böyük hadisələrdə axtarmaq lazım deyil. Bəzən eyni mühitdə keçirilən günlər, bir-birini dinləmək və qarşı tərəfə hörmətlə yanaşmaq kifayət edir. Sonrasını isə zaman müəyyənləşdirir.

Müsahiblərim Murad, Elşən və İbrahim üçün də bu münasibətlərin hara qədər gedəcəyini zaman göstərəcək. Bu gün isə onların arasında artıq xidmət yoldaşlığından doğan səmimi bir ünsiyyət var. Bəlkə də hərbi xidmətin illər sonra xatırlanacaq ən dəyərli məqamlarından biri məhz burada tanıdığın insanlardır. Xidmət yoldaşlığı ilə başlayan münasibətin dostluğa çevrilməsi isə həmin günlərə başqa bir məna qatır.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

# Güclü ordu, güclü Lider - Heydər Əliyevin yolu ilə

***Müstəqil dövlətin əsas dayaqlarından biri güclü ordudur. Tarix göstərir ki, siyasi müstəqilliyini qorumaq istəyən hər bir dövlət ilk növbədə milli təhlükəsizlik sistemini və peşəkar silahlı qüvvələrini formalaşdırmalıdır. Azərbaycan dövlətçiliyinin memarı, Ümummilli Lider Heydər Əliyev də hakimiyyətə qayıtdığı ilk gündən bu reallığı strateji prioritet kimi müəyyənləşdirmişdi. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi ordu quruculuğu siyasəti təkcə hərbi sistemin yaradılması ilə məhdudlaşmadı, eyni zamanda dövlətçilik ideologiyasının, milli təhlükəsizlik konsepsiyasının və geosiyasi balansın əsas sütunlarından birinə çevrildi.***

1990-cı illərin əvvəllərində Azərbaycan həm siyasi, həm iqtisadi, həm də hərbi baxımdan olduqca mürəkkəb mərhələdən keçirdi. Ermənistanın hərbi təcavüzü, daxildəki siyasi xaos, nizamsız silahlı dəstələrin fəaliyyəti və hakimiyyət uğrunda mübarizə dövlət institutlarının zəifləməsinə səbəb olmuşdu. Belə bir şəraitdə ordunun vahid komandanlıq altında fəaliyyət göstərməməsi ölkənin təhlükəsizliyi üçün ciddi risk yaradırdı.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan müdrik siyasətçi Heydər Əliyev ilk növbədə dövlət idarəçiliyində sabitliyin təmin olunmasına və ordunun mərkəzləşdirilmiş şəkildə formalaşdırılmasına başladı. Nizamsız silahlı birləşmələrlə dövlət qurmağın mümkünsüzlüyü açıq-aşkar özünü büruzə verirdi. Buna görə də dünya şöhrətli siyasətçi Heydər Əliyev ordu quruculuğu siyasətinin əsasını vahid komandanlıq prinsipi əsasında qurdu, dövlətə sədaqət və peşəkar hərbi idarəetməni təşkil etməyə başladı.

Dahi rəhbər Heydər Əliyevin yanaşmasında ordu, sadəcə silahlı qüvvə deyil, dövlətin suverenliyinin əsas təminatçısı idi. Bu baxımdan onun ordu siyasəti klassik hərbi yanaşmadan daha geniş siyasi-strateji mahiyyət daşıyırdı.

O dövrdə Azərbaycan Ordusunun əsas struktur modeli formalaşdırıldı. Silahlı Qüvvələrdə vahid idarəetmə sistemi yaradıldı, nizamsız silahlı dəstələr ləğv edildi və dövlətə tabe olmayan qüvvələrin fəaliyyəti dayandırıldı. Bu proses Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsində mühüm rol oynadı.

Ümummilli Lider Heydər Əliyevin əsas hədəflərindən biri sovet hərbi sistemindən qalan köhnə idarəetmə metodlarını müasir yanaşmalarla əvəz etmək idi. Bunun üçün hərbi təhsil sisteminin yenilənməsi, zabit korpusunun gücləndirilməsi və beynəlxalq hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atıldı.

Məhz onun təşəbbüsü ilə Azərbaycanda hərbi kadr hazırlığı məsələsi dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi. Gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi, peşəkar milli hərbi təhsil sisteminin formalaşdırılması və hərbi nizam-intizamın gücləndirilməsi onun ordu strategiyasının əsas komponentləri idi.



Heydər Əliyevin ordu siyasətini fərqləndirən əsas məqamlardan biri onun geosiyasi reallıqları düzgün qiymətləndirməsi idi. Azərbaycan mürəkkəb regionda yerləşir və müxtəlif güc mərkəzlərinin maraqlarının toqquşduğu strateji əhəmiyyətli coğrafiyadır. Bu səbəbdən Ümummilli Lider Heydər Əliyev hərbi təhlükəsizlik məsələsini yalnız daxili məsələ kimi deyil, regional və beynəlxalq təhlükəsizlik sisteminin bir hissəsi kimi dəyərləndirirdi.

Həyata keçirilən balanslaşdırılmış xarici siyasət ordunun inkişafına da birbaşa təsir göstərdi. Azərbaycan bir tərəfdən beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirir, digər tərəfdən isə milli maraqlara əsaslanan müstəqil təhlükəsizlik siyasəti yürüdürdü.

Bu dövrdə NATO ilə əməkdaşlığın inkişaf etdirilməsi, “Sülh naminə tərəfdaşlıq” proqramına qoşulma və beynəlxalq hərbi təcrübənin öyrənilməsi Azərbaycan Ordusunun modernləşməsinə ciddi töhfə verdi.

Ulu Öndər Heydər Əliyevin ordu siyasətində diqqət çəkən mühüm məqamlardan biri də milli-mənəvi ideologiyanın hərbi sistemə inteqrasiyası idi. O, ordunun yalnız texniki və fiziki hazırlıqdan ibarət olmadığını, həm də milli ruhun daşıyıcısı olduğunu vurğulayırdı.

Vətənə bağlılıq, dövlətə sədaqət və milli kimlik anlayışı onun hərbi siyasətinin ideoloji əsaslarını təşkil edirdi. Məhz bu yanaşma sonrakı illərdə Azərbaycan Ordusunda yüksək döyüş ruhunun formalaşmasına zəmin yaratdı.

Ümummilli Liderin “Güclü dövlətin güclü ordusu olmalıdır” tezisi təkcə siyasi şüar deyil, həm də strateji dövlət konsepsiyası idi. Bu konsepsiya Azərbaycanda milli təhlükəsizlik sisteminin formalaşmasının əsas fəlsəfəsinə çevrildi.

Heydər Əliyev ordu quruculuğunu yalnız şəxsi heyətin hazırlanması ilə məhdudlaşdırmırdı. O, müdafiə sənayesinin inkişafının da strateji əhəmiyyət daşıdığını ön plana çəkirdi. Azərbaycanın iqtisadi imkanlarının güclənməsi ilə paralel şəkildə hərbi potensialın artırılması istiqamətində mühüm qərarlar qəbul olundu.

Xüsusilə enerji strategiyasından əldə edilən gəlirlərin dövlət təhlükəsizliyi və hərbi sahəyə yönəldilməsi gələcəkdə ordunun texniki cəhətdən modernləşdirilməsi üçün mühüm baza formalaşdırdı. Bu siyasət sonrakı dövrlərdə Azərbaycan Ordusunun regionun ən güclü ordularından birinə çevrilməsinə şərait yaratdı.

Bu gün Azərbaycan Ordusunun əldə etdiyi uğurların təməlində məhz Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətt dayanır. Onun yaratdığı hərbi-siyasi model sonrakı mərhələlərdə daha da inkişaf etdirildi və müasir Azərbaycan Ordusunun əsas konseptual bazasına çevrildi.

Xüsusilə Azərbaycan Silahlı Qüvvələrinin peşəkarlıq səviyyəsinin yüksəlməsi, müasir texnologiyalarla təchiz edilməsi və yüksək döyüş qabiliyyətinə malik olması həmin siyasətin uzunmüddətli nəticəsi kimi qiymətləndirilir.

Dahi şəxsiyyət Heydər Əliyevin ordu quruculuğu siyasətinin əsas üstünlüyü ondadır ki, bu siyasət yalnız dövrün problemlərini həll etməyə hesablanmamışdı. O, gələcəyə hesablanmış dövlət təhlükəsizlik modelini formalaşdırmışdı. Bu model milli maraqların qorunmasına, suverenliyin təmin edilməsinə və Azərbaycanın regional güc kimi mövqeyinin möhkəmləndirilməsinə xidmət edirdi.

Heydər Əliyevin ordu quruculuğu siyasəti Azərbaycan dövlətçilik tarixində strateji dönüş nöqtələrindən biri hesab olunur. Onun rəhbərliyi ilə yaradılan milli ordu modeli dövlət müstəqilliyinin qorunması, siyasi sabitliyin təmin edilməsi və milli təhlükəsizlik sisteminin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi hərbi-siyasi kurs bu gün də Azərbaycanın təhlükəsizlik strategiyasının əsas istiqamətlərindən biri olaraq qalır. Azərbaycanın güclü dövlətə və peşəkar orduya sahib olması məhz həmin uzaqgörən siyasətin nəticəsi kimi tarixə düşüb.

**Əli HÜSEYNOV**
**Bakı şəhəri**

# Azərbaycan Ordusunun Zəfər salnaməsi

**(Əvvəli 1-ci səhifədə)**

2020-ci ildə başlayan Vətən müharibəsi Azərbaycan Ordusunun qüdrətini və döyüş qabiliyyətini bütün dünyaya nümayiş etdirdi. 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində işğal altında olmuş torpaqlarımız azad edildi. Qədim Şuşa şəhərinin azad edilməsi Vətən müharibəsinin zirvə nöqtəsi kimi tarixə düşdü. Bu əməliyyat Azərbaycan əsgərinin qəhrəmanlığını, peşəkarlığını və yüksək mənəvi gücünü bir daha sübut etdi. Müharibə zamanı göstərilən şücaət nümunələri Azərbaycan xalqının yaddaşına əbədi həkk olundu. Şəhidlərimizin qəhrəmanlığı və döyüşçülərimizin şücaəti bu tarixi Zəfərin əsas dayağı oldu. Tarixi Zəfərdən sonra Azərbaycan Ordusu yeni mərhələyə qədəm qoydu. Azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işləri geniş vüsət aldı. Təhlükəsizlik tədbirləri və bərpa prosesi həyata keçirilməyə başlandı.



Hərbi təhsil müəssisələrində gənc zabitlərin hazırlanması prosesi gücləndirildi, beynəlxalq təcrübə ilə inteqrasiya genişləndirildi. Bu da ordumuzun kadr potensialını daha da yüksək səviyyəyə çatdırdı. Azərbaycan Ordusu beynəlxalq əməkdaşlıq çərçivəsində bir sıra ölkələrlə birgə təlimlər keçirərək təcrübəsini daha da artırır. Bu əməkdaşlıq ordunun qlobal hərbi standartlara uyğunlaşmasına imkan yaradır. Vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində məktəblərdə və ictimaiyyət arasında müxtəlif layihələr həyata keçirilir. Bu layihələr gənc nəslin Vətənə, torpağa olan bağlılığını daha da artırır.

Müasir dövrdə Azərbaycan Ordusu regionun ən sürətli inkişaf edən və yüksək döyüş qabiliyyətinə malik silahlı qüvvələrindən biri kimi tanınır. Bu inkişafın əsasını dövlətin hərbi siyasət sahəsində apardığı islahatlar və innovativ yanaşmalar təşkil edir.

Son illərdə ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar Silahlı Qüvvələrin strukturunun müasirləşdirilməsinə və çevik idarəetmə sisteminin formalaşmasına şərait yaradıb. Müasir texnologiyaların tətbiqi Azərbaycan Ordusunun döyüş imkanlarını əhəmiyyətli dərəcədə artırıb. Xüsusilə kəşfiyyat, müşahidə və idarəetmə sistemləri yeni mərhələyə yüksəlib. Pilotsuz uçuş aparatları ordumuzun ən mühüm texnoloji vasitələrindən birinə çevrilib. Bu sistemlər döyüş meydanında məlumatların operativ əldə edilməsində və dəqiq zərbələrin həyata keçirilməsində mühüm rol oynayır. Artilleriya və raket sistemlərinin modernləşdirilməsi də döyüş qabiliyyətinin artırılmasında əsas amillərdəndir. Yüksək dəqiqlikli silahlar hədəflərin daha effektiv məhv edilməsinə imkan verir.

Komanda-idarəetmə sistemlərinin rəqəmsallaşdırılması qərarların daha sürətli və dəqiq qəbul olunmasını təmin edir. Bu da döyüş əməliyyatlarının effektivliyini yüksəldir. Elektron kəşfiyyat və rabitə sistemləri ordunun informasiya üstünlüyünü gücləndirir. Müasir döyüş şəraitində informasiya təhlükəsizliyi xüsusi əhəmiyyət daşıyır. Zirehli texnikanın yenilənməsi və müasir standartlara uyğunlaşdırılması şəxsi heyətin müdafiə qabiliyyətini artırır və döyüş əməliyyatlarında çevikliyi təmin edir.

Azərbaycan Ordusunda tətbiq edilən gecəgörmə və termal müşahidə cihazları hərbi qulluqçulara istənilən şəraitdə əməliyyat aparmaq imkanı yaradır. Hava hücumundan müdafiə sistemlərinin təkmilləşdirilməsi ölkənin hava məkanının təhlükəsizliyini daha etibarlı şəkildə qorumağa xidmət edir.

Orduda rəqəmsal xəritələşdirmə və peyk texnologiyalarından istifadə əməliyyatların planlaşdırılmasını daha dəqiq edir. Hərbi təlimlərdə simulyasiya texnologiyalarının tətbiqi şəxsi heyətin real döyüş şəraitinə daha yaxşı hazırlanmasına imkan yaradır. Müasir texnologiya ilə yanaşı, Azərbaycan Ordusunun əsas gücü yüksək motivasiyalı və peşəkar şəxsi heyətdir. Texnika və insan amilinin vəhdəti döyüş qabiliyyətini daha da gücləndirir. Beynəlxalq hərbi əməkdaşlıq çərçivəsində yeni texnologiyaların öyrənilməsi və tətbiqi ordunun inkişafına təkan verir.

Azərbaycan Ordusu müasir texnologiyaları uğurla tətbiq edərək, yüksək döyüş qabiliyyətini qoruyan geniş əməliyyat imkanlarına malik olan və daim inkişaf edən güclü hərbi qüvvəyə çevrilib.

**Kifayət ƏLİYEVA**
**“Azərbaycan Ordusu”**

# "Vətən qarşısında xidməti borcumuzu ləyaqətlə, şərəflə başa vuracağıq"



Vətən də canlıdır. O da anadır. Diqqət, qayğı, müdafiə istəyir. O, danışmır, həm də danışır. O, bütövdür, bütöv də qalmaq istəyir. Böyükdür, daha da böyük olmaq istəyir. O, hamı üçün doğmadır, doğma kimi də sevilir, əzizlənir...

İsti yay səhəridir. Vətənimin ikinci ən böyük şəhəri qədim Gəncənin yolları adi günlərdən fərqli olaraq avtomobillərlə doludur. Gecəynən müxtəlif bölgələrdən bu qədim şəhərə üz tutan insanların məqsədləri, amalları birdir; bir ay öncə hərbi xidmətə yola saldıqları övladlarının Hərbi Andın qəbul edilməsində iştirak etməkləridir. Çoxları yüz kilometrlərlə məsafədən gəlib. Hərbi hissənin yaxınlığında yolun kənarında şam ağaclarının altında qərar tutublar. Dan yeri yenicə açılır. Meh də əsmir ki, çox da uzaqda olmayan Murovun sərinini gətirsin. Budaqların arasından üfüqdən boylanan günəş şüaları ilıq havanı yavaş-yavaş isidir. Bir azdan lap isti düşəcək. Adamlar kölgələnməyə indidən yer axtarırlar...

Hərbi hissədən əsgərlərin ayaq səsləri gəlirdi. Bəzən də xorla dedikləri Hərbi Andın sözləri eşidilirdi. Hiss olunurdu ki, onlar Hərbi Anda başlamazdan əvvəl sonuncu məşqlərini edirlər. Sıra meydanında boy sırası ilə düzülmüş əsgər "qutu"larının səsidir bu səs. Bu tanış, doğma səs adama xoş ovqat bəxş edir. Adam öz ordusu ilə fəxr edir, qürur duyur. Bir anlıq xəyalım əvvəlki illərə, ordumuzun yeni yarandığı vaxta gedir. Onda da ordumuz var idi. İndiki kimi intizamlı idi, amma təminat baxımdan eyni qaydada tam təchiz edilməmişdi. O zaman müharibə gedirdi. Ordumuzun böyük hissəsi düşmənlə təmas xəttində yerləşirdi. Hər bir əsgərdə Vətənə bağlılıq, sevgi vardı. Torpaqları düşmən işğalından azad etmək üçün hər an Ali Baş Komandanın əmrini gözləyirdi. Döyüş əmrinin gözlənməsi də zamanında içdiyi Hərbi Anda sədaqətin bir hissi idi. İllər keçdi, əsgərlər hərbi xidmətdə bir-birini əvəz etdilər. Amma yenə də onların Vətənə olan sonsuz sevgisi tükənmədi. Tərxis olsalar belə, yenə torpaqlarımızın işğaldan azad edilməsi üçün döyüşlərə hazır idilər. Nəhayət, 2020-ci il sentyabrın 27-si hər kəsin həsrətlə gözlədiyi tarixi gün yetişdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev orduya əks-hücum əmri verdi. Qısa müddətdə ordumuzun bölmələri təmas xəttini yardı. Düşməni məğlub edərək torpaqları hissə-hissə azad etdi. Cəmi 44 gün davam edən müharibə Vətənimizin ərazi bütövlüyünün bərpa olunması ilə nəticələndi.

Onda da əsgərlər Vətənə müqəddəs and içmişdilər. And içmişdilər ki, əldə silah Vətəni göz bəbəyi kimi qoruyacaqlar, əjdadlarının döyüş ənənələrinə sadiq qalacaqlar, komandirlərin verdiyi əmr və göstərişlərə sözsüz tabe olacaqlar. Oldular da. Müharibədən əvvəl onlar komandirlərin öyrətdiklərini dərindən mənimsədilər. Həm nəzəri biliklər, həm də praktiki vərdişlər döyüş vaxtı döyüşçülərin karına gəldi.

Hərbi rituallardan sonra gənc əsgərlərin andiçmə mərasimi başladı. Onlar Hərbi Anda sadiq qalacaqlarına söz verdilər. And içən əsgərlərin uca səsləri ətrafa dalğa-dalğa yayılırdı. Səmaya ucalan bu səsin ahəngində bir məğrurluq, bir qələbə əzmi vardı. And içən əsgərlər bununla böyük Zəfərin qoruyucuları, davamçıları olduqlarını deyirdilər. 44 gün davam edən Qarabağ savaşında bizə tarixi Zəfəri yaşadan oğullar da bu cür and içmişdilər. Onlar anda sadiq qalaraq Vətən uğrunda, Qarabağın azad edilməsi yolunda döyüşə atıldılar. Misilsiz qəhrəmanlıqlar göstərdilər. Keçilməz yerlərdən keçdilər, aşılmaz qayaları aşdılar ki, qədim yurd yerlərini azad etsinlər. Qanları, canları bahasına buna nail oldular. Bir əli silahda, bir əli dost çiynində başını dik tutub and içən Vətən oğullarının sədaqəti yüzlərlə izləyicini heyran edirdi. Silahla qardaş olub and içən əsgərlər artıq bu andan etibarən Vətənin tamhüquqlu müdafiəçiləri oldular.

Çıxışlar oldu. Vətənpərvərlikdən, qəhrəmanlıqlardan danışıldı. Döyüşlərdə şücaət göstərmiş oğulların hünərlərini örnək çəkdilər. Əsgərlərin adından söz deyən əsgər də içdiyi anda sadiq qalacaqlarını, bu yolda ölüm belə olsa bir addım geri çəkilməyəcəklərini bildirdi. Onların çıxışlarında böyük həqiqət, inam, güvən vardı. O həqiqəti, o inamı gerçəkləşdirəcək bir ümid vardı onların gözlərində. Ətrafı bir də nəzərdən keçirirəm. Qərargah, əsgər yataqxanaları, yeməkxana və başqa yeni tikilmiş binalar göz oxşayırdı. Bunlar hamısı əsgərlərin xidməti istifadəsində olan obyektlərdir. Bu şəraiti görən əsgər valideyni də övladından tam arxayın olur.



Andiçmə mərasimi bitəndən sonra valideynlərlə görüş oldu. Bölük-bölük əsgərlər əvvəlcədən müəyyən etdikləri yerlərə komandirlərinin rəhbərliyi altında gəlirlər. Onlar doğmalarına, yaxınlarına qovuşurlar. Bu da tarixi bir günün xoş anıdır. Övladlarından bu qədər müddətə ayrı düşməyən anaların həsrətli görüşü adamı lap kövrəldir. Onlar bir anlıq belə övladlarından "qopmaq" istəmirlər. Əsgər görüşünə gələn hər bir valideynin övladına "Komandirlərinin sözünə qulaq as, onların verdiyi əmrlərdən çıxma, hərbi biliklərini dərindən öyrən, əsgər yoldaşların ilə dostluq əlaqələrini qur, sağ-salamat səni evdə gözləyirik" və başqa bu kimi nəsihətləri də tez-tez eşitmək olurdu.

Qeyd edək ki, Gəncə şəhərində yerləşən hərbi hissə ilə yanaşı, ordumuzun bir neçə hərbi hissəsində də müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2026-cı ilin hazırlıq planına uyğun olaraq, gənc əsgərlərin andiçmə mərasimləri keçirildi.



Mərasimlərdə hərbi orkestrlərin müşayiəti ilə Döyüş bayraqları təntənəli surətdə sıra meydanlarına gətirildikdən sonra xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.Təntənəli surətdə Hərbi Andı qəbul edən gənc əsgərlər Vətənə sadiq olacaqlarına söz verdilər.



Müdafiə Nazirliyinin nümayəndələri və hərbi hissə komandirləri çıxış edərək gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik etdi, onlara Vətənə, dövlətə, Ali Baş Komandana, Hərbi Anda sadiq olmalarını, nümunəvi xidmət etməyi, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş hazırlıqlarını daim yüksəltmələrini, komandir-rəis heyətinin əmr və göstərişlərini dəqiq və vaxtında yerinə yetirmələrini, torpaqlarımızın müdafiəsi naminə hər an hazır olmalarını tövsiyə etdilər.

Çıxış edən tədbir iştirakçıları gənc əsgərlərin Hərbi Andı qəbul etmələrindən qürur duyduqlarını və hərbi xidmətdə yaradılan şəraitə görə dövlət başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Andiçmə mərasimləri hərbi qulluqçuların təntənəli marşları ilə tribunaların önündən keçidləri ilə başa çatdı. Sonda hərbi hissələrdə vətənpərvərlik ruhunda mədəni-kütləvi tədbirlər keçirildi.

"Azərbaycan Ordusu" qəzeti redaksiyasının əməkdaşları andiçmə mərasimlərində iştirak edən gənc əsgərlərin və onların valideynlərinin düşüncələrini qələmə aldılar. Onları oxucularımıza təqdim edirik.

**"Azərbaycan Ordusu"**

**Əsgər atası Araz İsmayılov:** Zaqatala rayonunun Gözbarax kəndindən gəlmişəm. Oğlum Əzizi bir ay bundan öncə hərbi xidmətə yola salmışdım. O, hərbi xidmətdən, burada onlara göstərilən diqqət və qayğıdan razıdır. Mən də ordumuzda xidmət etmişəm. Rabitəçi olmuşam. O vaxtlar Birinci Qarabağ müharibəsi yenicə dayanmışdı. Cəbhədə atəşkəs elan olunmuşdu. İstər ərzaq, istərsə də geyim və digər təminatlar çox zəif idi. Buna baxmayaraq əsgərlərdə Vətəni qorumaq üçün ruh yüksəkliyi vardı. Komandirlər tərəfindən müntəzəm dərslər keçirilirdi. Əsgərlər ixtisaslara uyğun təlim-məşqlərə davam edirdilər. Günlərlə çöl şəraitində, poliqonlarda qalıb bilik və bacarıqlarımızı artırırdıq. Torpaqlarımız erməni işğalı altında olduğu üçün müharibənin başlanacağı anı gözləyirdik.

Böyük oğlum Gündüz İsmayılovu da bu ilin yanvarında hərbi xidmətə yola salmışıq. Gündüz dağların qoynunda, zamanında ağır döyüşlər getmiş bir ərazidə komando hərbi hissəsində xidmət edir. Oğullarımın Vətən qarşısında övladlıq borcunu ləyaqətlə başa vurub, alnıaçıq, üzüağ evə dönəcəkləri günü gözləyirəm.



**Əsgər atası Rəhim Bilalov:** Şəki şəhərindən gəlmişəm, ürəyim xoş sözlərlə, səmimi arzularla doludur. Özüm də zamanında xidmət etmişəm. Hərbi xidmətin nə olduğunu yaxşı bilirəm. Vətən, torpaq, xalq, dövlət anlayışlarını oğlum İbrahimə hərbi xidmətə yola salmadan əvvəl aşılamışam. İbrahim ali təhsillidir. Lənkəran Dövlət Universitetini bitirib. Arzum idi ki, oğlum da əsgər olsun. Hərbi xidmətin nə olduğunu bilsin. Hərbi xidməti keçmək, Vətən qarşısında övladlıq borcunu yerinə yetirmək hər bir gənc üçün vacibdir və mənəvi borcdur. Bu müqəddəs yolu keçməyən birinin həyatda uğur qazana biləcəyinə gümanım azdı. Çünki hərbi xidmət böyük bir məktəbdir. Oğlumu gələcək həyatda möhkəm iradəli, vətənpərvər görmək istəyirəm. Bunun da yolunu hərbi xidmətdə, nizam-intizamda, müntəzəm fiziki hazırlıqda və taktiki çöl təlimlərində görürəm. Bu gün mənim üçün əlamətdar bir gündür. Bir ay əvvəl hərbi xidmətə yola saldığım oğlum Hərbi Andı qəbul etdi. Bu mənə də bir anlıq hərbi xidmət dövrümü xatırlatdı. Xalqımız ötən əsrin sonlarında tarixin ən ağır sınağı ilə üz-üzə qaldı. Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş erməni təcavüzü bizi böyük fəlakətlərə sürüklədi. Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtmasaydı, Azərbaycan daha böyük fəlakətlərlə üzləşəcəkdi. Altı ildir ki, Azərbaycan Ordusu erməni işğalı altında qalmış torpaqlarımızı azad edib. Ölkəmizin suverenliyi tam bərpa olunub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordumuz daha da gücləndi. Regionun ən güclü, ən qüdrətli ordusuna çevrildi. Oğluma və onun silahdaşlarına sözüm odur ki, siz bu gün qalib ordunun əsgərlərisiniz. Bu ordunu indi siz daha güclü, daha qüdrətli etməlisiniz. Hərbi bilikləri və praktiki məşqlərə dərindən yiyələnməli, komandirlərin əmrlərinə sözsüz tabe olmalısınız.



**Əsgər nənəsi Fatma Süleymanova:** Şəki şəhərindən gəlmişik. Nəvələrim bu hərbi hissədə əsgərdirlər. Alik Süleymanov və Artur Süleymanov oğul nəvələrimdir. Hər ikisi Vətənə, torpağa, elə, obaya bağlı savadlı, məsuliyyətli gənclərdir. Bu gün onların həyatının ən sevincli, xoşbəxt, unudulmaz günüdür. Onlar Hərbi And içib ordumuzun sıralarında Vətənimizin keşiyində dayanacaqlar. Mənim də sevincimin həddi hüdudu yoxdur. Əsgər nənəsi olmaq bir başqa hissdir. Onlarla qürur duyuram. Hərbi And içən bütün əsgər övladlarımızı təbrik edirəm. Sözüm əsgərlərədir.

**(Ardı 5-ci səhifədə)**

# "Vətən qarşısında xidməti borcumuzu ləyaqətlə, şərəflə başa vuracağıq"

(Əvvəli 4-cü səhifədə)

Vətənimizə layiqli övlad olun. Onun keşiyində möhkəm dayanın. İşinizdə həmişə ayıq-sayıq olun. Namusla, vicdanla xidmət edib, valideynlərinizin, əzizlərinizin yanına başıuca, alnıaçıq dönün. Allah bir də xalqımıza ağrı-acı yaşatmasın. Müharibə, qan-qada, anaların gözü yaşlı olmasın. Qardaşımın, bacımın iki oğlu Birinci Qarabağ müharibəsində könüllü iştirak edib. Qarabağ müharibəsi veteranıdırlar. Müharibə analarımızın bir ömür boyu qurumayan göz yaşlarıdır. Arzulayıram ki, bütün dünyada müharibələr dayansın. Göyün üzü açıq olsun. Analar övladlarını sülh şəraitində hərbi xidmət keçməyə yola salsınlar. İllərlə ağır, faciəli, müharibə şəraitində yaşadıq. Dövlətimizin rəhbəri İlham Əliyevin sayəsində ordumuzun, xalqımızın birliyinin gücü ilə düşmənin



ayağı torpaqlarımızdan çəkildi. Xalqımızın minlərlə oğlu Vətən yolunda canından keçdi, şəhid oldu. Şükürlər olsun bu günümüzə. Bu gün övladlarımız dinc şəraitdə Vətənimizə sədaqətlə xidmət edirlər. Allah əsgərlərimizi qorusun.

**Əsgər anası Vəfa Əliyeva:** Oğlum Sübhan Həsənov Azərbaycan Neft və Sənaye Universitetinin məzunudur. Bu gün o, Hərbi Andı qəbul edib Vətənimizin keşiyində ayıq-sayıq dayanacağına söz verdi. Əsgərlik məktəbində böyük həyata hazırlanırsan. Burada keçdiyin dərslər də həyat dərsidir. Biz valideynlər gənc matrosların məişət şəraiti ilə yaxından tanış olduq. Gördüyümüz mənzərə çox ürəkaçandır. Onlar üçün çox gözəl şərait yaradılıb. Böyük yeməkxanası, tərtəmiz yataqxanaları var. Adam içəri girəndə ürəyi açılır. Qəlbimiz qürur hissi ilə döyünür. Sağ olsun Prezidentimiz, Ali Baş Komandanımız. Əsgərlərimizə bu cür gözəl şərait yaradıb. Dövlət başçımız hər zaman orduya böyük diqqət və qayğı göstərib. Bizim çox güclü ordumuz var. Dövlət, xalq, ordu birliyi ordumuzu daha da güclü, qüdrətli edir. Sübhanı Vətənini sevən, ona candan bağlı bir övlad kimi böyütmüşük. Bu gün Hərbi Andı qəbul edib ordu sıralarına daxil olan bütün əsgər və matrosları təbrik edir, onlara cansağlığı, Vətənə xidmətlərində uğurlar arzulayıram.

**Əsgər anası Leyla Xəlilova:** Fəxr edirəm ki, bu gün oğlum əsgər Amil Xəlilov Vətənimizə, xalqımıza layiqli övlad olub, Hərbi And içib ordumuzun sıralarında xidmətə başlayır. Hətta mən deyərdim ki, həyatının ən məsuliyyətli dövrü başlayır. Bu günün layiqli əsgəri sabahın layiqli vətəndaşı olacaq. Hərbi hissədə matroslar üçün yaradılan şərait dünyanın ən müasir ordularında var. Bütün hərbi hissələrdə belə yüksək səviyyədə şəraitin yaradılması Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanı İlham Əliyevin ordumuza göstərdiyi diqqətin nəticəsidir. Hər bir Azərbaycan vətəndaşı kimi, mən də Müzəffər Ali Baş Komandanımızla, rəşadətli ordumuzla qürur duyuram. Bütün gənc matros və əsgərləri andiçmə günü münasibətilə təbrik edir, Vətən naminə müqəddəs və şərəfli xidmətlərində nailiyyətlər arzulayıram.



**Əsgər babası Bayram Səmədov:** Oğullar Vətən üçün doğulurlar. Vətənin dar günündə ona arxa-dayaq da oğullarımız olur. Bu hər zaman belə olub, belə də



olacaq. Qarabağda müharibə başlayanda igid, qorxmaz oğullarımız əlinə silah alıb Vətən torpaqlarını qorumağa getdilər. Vətənimizin ərazi bütövlüyü, suverenliyi uğrunda canından keçən qəhrəman oğullarımız xalqımızın tarixində yeni qürur səhifələri açdılar. Analarımız şəhid övladlarını torpağa tapşırıb "Təki Vətən yaşasın", - dedilər. "Oğul düşmən çəpəridir", - deyib atalarımız. Oğul nəvəm gənc matros Elnur Səmədov da Vətənə övladlıq borcunu verməyə gəlib. O da əsgər və matros yoldaşları ilə birlikdə Hərbi Andı qəbul etdi. Söz verdi ki, Vətənimizin keşiyində ayıq-sayıq dayanacaq. Elnurun qardaşı da işğaldan azad olunmuş Xocavənd rayonunun Hadrut qəsəbəsində yerləşən Komando hərbi hissəsində xidmət edir. 13 ayın əsgəridir. Hər iki nəvəmi hərbi xidmətə "Get, Vətəni kişi kimi qoru. Vətənin şərəfi ailənin şərəfi deməkdir", - deyib yola salmışam. Bu gün şükürlər olsun ki, hər yerdə əsgərlərimiz üçün gözəl şərait yaradılıb. Yeməkləri, təmizlikləri gözümüzün qabağındadır. Ordumuza göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin başçısı cənab İlham Əliyevə minnətdarıq. Bu gün Ali Baş Komandanın orduya diqqəti sayəsində övladlarımız müasir hərbi hissələrdə xidmət aparırlar. Vətənimizin keşiyində dayanan bütün hərbçilərimizi Allah qorusun.

**Əsgər Səid Bəylərov:** Naxçıvan şəhərində anadan olmuşam. Atam da hərbçi olub. Hərbi Dəniz Qüvvələrində xidmət edib. İkinci dərəcəli kapitan rütbəsi ilə təqaüdə çıxıb. Uşaqlıqdan hərb peşəsinə xüsusi rəğbətlə böyümüşəm. Hərbi xidmət mənim üçün həm də həyat məktəbi olacaq, çünki əsgərlik hər bir gəncin müstəqil həyata uyğunlaşmasında mühüm rol oynayır. Hərbi xidmətə gəldiyim qısa müddət ərzində bir çox bilik və bacarıqlara yiyələnmişəm. Burada komandirlər bizə hərbi bilikləri yüksək səviyyədə öyrədirlər. Biz də onların öyrətdiklərini daha dərindən öyrənirik. Mənim üçün həm yeni, həm də maraqlı olan təlim-atış çalışması oldu. İlk dəfə idi ki, adımıza təhkim olunan avtomatdan təyin olunmuş məsafəyə güllə atırdım. Atdığım güllə də hədəfə dəydi. Komandirin dilindən bunu eşitmək qürurverici idi. Bu məni çox sevindirdi. Hərbi Anda hazırlığın da həyatımın ən xoş və yaddaqalan anları olduğunu düşünürəm. Çünki hazırlıq müddətində çoxlu məşqlər etdik. Bu hazırlıqlar çətin olsa da, uğurlu keçdi. Hərbi Andın sözləri necə də dərin mənalıdır. Andıma sadiq qalacağam. Hazırlıq dövrü bitəndən sonra xidmətimə harada davam edəcəyimi bilmirəm. Ancaq



harada olmağımızdan asılı olmayaraq, Vətən qarşısında xidməti borcumuzu ləyaqətlə, şərəflə başa vuracağıq.

**Əsgər Ünal Nəsibov:** Azərbaycan Diplomatik Akademiyasını bitirmişəm. Vətənə xidməti borcumu verməkdən qürur duyuram. Hər bir xalqın və dövlətin qoruyucusu, müdafiəçisi onun əsgəri və ordusudur. Məndən əvvəl də hərbi xidmətə gələnlər olub. Onlar Vətənimizi canla-başla qoru-



yublar. Uzun müddət Qarabağ və ətraf rayonlarımız ermənilərin işğalı altında olub. Həmin ərazilər ordumuz tərəfindən İkinci Qarabağ müharibəsi zamanı azad edilib. Ölkəmizin ərazi bütövlüyünü bərpa edən xalqımızın qəhrəman oğullarının döyüşlərdə göstərdikləri igidliklər saya gələn deyil. Ulu babalarımızın miras qoyduğu şəhid qardaşlarının qanı axan, sağlamlıqları Vətənə qurban verən və döyüşlərdən sağ qayıdan oğulların sayəsində düşmən məğlub oldu. Mənim atam da Birinci Qarabağ müharibəsi iştirakçısıdır. Onun müharibə illəri ilə bağlı xatirələrini dinləmişəm. O zaman Azərbaycan Ordusu yeni yaranırdı. Müharibə gedirdi. Ordu pərakəndə idi. Belə bir ordunun sona qədər döyüşlərdə uğur qazanacağı gözlənilən deyildi. Amma buna baxmayaraq döyüşən əsgərlərin göstərdikləri fərdi igidliklər saya gəlmirdi. Hərbi xidmətə gəldiyim ilk gündən qarşıma məqsəd qoymuşam ki, Vətən qarşısında hərbi xidmətimi şərəflə, ləyaqətlə başa vurum. Bunun üçün komandirlərin sözünə tabe olmaq, verilən əmr və göstərişləri vaxtında yerinə yetirmək lazımdır. İntizam qələbənin başlanğıcı, yüksək intizam isə qələbə deməkdir. Məqsədim, amalım yüksək intizamlı əsgər olmaqdır.

**Əsgər Elxan Hətəmov:** 2004-cü ildə Füzuli rayonunda anadan olmuşam. Bakı Dövlət Universitetində "Beynəlxalq münasibətlər" ixtisası üzrə təhsil almışam. Hərbi xidmətə başladığım ilk gündən qarşımda dayanan məsuliyyətin mahiyyətini yaxşı dərk edirəm. Hərbi And hərbi xidmətin başlanğıcı olmaqla bərabər, Vətən qarşısında verilən ömürlük sözün ifadəsidir. Hərbi Andın hər bir sözünü şərəf qanunu bilərək ömrüm boyu uca tutacağam. Vətənin hər qarışını canımdan əziz bilib, onu göz bəbəyim kimi qoruyacağam. Azərbaycan əsgəri adını şərəflə daşıyacaq, xalqımın başını həmişə uca edəcəyəm. Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü hər an qorumağa söz verirəm. Ordu həyatına qədəm qoyduğumuz ilk gündən üzərimizə böyük məsuliyyət götürdüyümüzü dərindən anlayırıq. Hərbi Andı qəbul edərkən xalqımıza və dövlətimizə sədaqətlə xidmət edəcəyimizə, Vətənin müdafiəsi naminə üzərimizə düşən vəzifələri şərəflə yerinə yetirəcəyimizə söz vermişik. Bu gün həmin andın məsuliyyətini hər addımda hiss edirik. Mən və əsgər yoldaşlarım Vətən qarşısında Hərbi Andı qəbul etdik. Bu, həyatımın ən məsuliyyətli və qürurverici günlərindən biridir. Azərbaycan Ordusunun əsgəri olmaq mənim üçün böyük fəxrdir. Hərbi xidmət müddətində əsgərlərə yalnız hərbi biliklər öyrədilmir. Burada kollektivlə davranmaq, bir-birinə dayaq olmaq, çətinliklərin öhdəsindən birlikdə gəlmək və verilən tapşırığa məsuliyyətlə yanaşmaq kimi vacib xüsusiyyətlər də formalaşdırılır. Bu keyfiyyətlər hər bir əsgərin gələcək xidmətində mühüm rol oynayır. Qalib Azərbaycan əsgəri adını daşımaq bizim üçün böyük qürur olmaqla yanaşı, ciddi məsuliyyətdir. Hər gün qazandığımız yeni təcrübənin gələcək xidmətimiz üçün mühüm əhəmiyyət daşıdığını yaxşı anlayırıq. Hərbi xidmət bizə intizamlı olmağı, verilən tapşırığa məsuliyyətlə yanaşmağı və komanda daxilində birlik nümayiş etdirməyi öyrədir. Vəzifə borcumuzu layiqincə yerinə yetirməyi, qarşılaşdığımız çətinliklərdən ruhdan düşməməyi və hər zaman öz üzərimizdə çalışmağı əsas məqsədlərimizdən hesab edirik.

**Əsgər Şahin Yaqublu:** Tərtər rayonunun Sarıcalı kəndində anadan olmuşam. Gəncə Dövlət Universitetini bitirmişəm. Mənim üçün



hərbi forma daşımaq və Vətən qarşısında Hərbi Andı qəbul etmək xüsusi məna daşıyır. Andiçmə mərasimi yaddaqalan oldu. Azərbaycan bayrağının qarşısında dayanaraq Vətənə sədaqətlə xidmət edəcəyimə söz vermək mənə böyük qürur hissi yaşatdı. İnsan belə bir anı özü yaşamayana qədər həmin hissi tam təsəvvür edə bilmir. Hərbi Andı qəbul edərkən üzərimə böyük məsuliyyət götürdüyümü hiss etdim. Bundan sonra əsas məqsədim xidmətimi layiqincə təşkil etmək, komandirlərimin tapşırıqlarını düzgün yerinə yetirmək və əsgər yoldaşlarımla bir-birimizə dayaq olmaqdır. Bu gün ən çox anamı və atamı düşünürəm. Övlad olaraq əsgər olmağımla onların gözlərindəki qüruru anlamaq çox da çətin deyil. Bilirəm ki, onlar da bu günü fəxarətlə izləyirlər. Mənim üçün hərbi xidmətin başqa bir mənası da var.

(Ardı 7-ci səhifədə)

*Milli Qəhrəmanlarımız*

# Şəhidlərimiz Vətən sevgisinin ali nümunəsidirlər

(Əvvəli 1-ci səhifədə)

Sonra Milli Qəhrəman İsgəndər Aznaurovun həyat və döyüş fəaliyyətindən bəhs edən videoçarx nümayiş olundu. Videoçarxda onun Vətənə bağlılığı, keçdiyi döyüş yolu və torpaqlarımızın müdafiəsi zamanı göstərdiyi misilsiz şücaət barədə məlumatlar təqdim edildi.

İsgəndər Aznaurov 1956-cı ildə Özbəkistan Respublikasının Buxara vilayətində anadan olub. Gənc yaşlarından zəhmətsevərliyi, prinsipiallığı və insanlara münasibəti ilə seçilən İsgəndər Aznaurov sonralar həyatını Azərbaycanla bağlayıb. Ölkəmizin üzləşdiyi ağır sınaqlar, torpaqlarımızın Ermənistan tərəfindən işğal təhlükəsi onun da Vətənin müdafiəsinə qalxmasına səbəb olub. O, Birinci Qarabağ müharibəsinin ilk illərindən döyüşlərə qatılaraq Azərbaycanın ərazi bütövlüyünün müdafiəsində fəal iştirak edib.

İsgəndər Aznaurov döyüşlərdə göstərdiyi cəsarət, yüksək iradə və hərbi peşəkarlığı ilə seçilib. O, xüsusilə Şınıx istiqamətində gedən döyüşlər zamanı düşmən mövqelərinin zərərsizləşdirilməsində mühüm rol oynayıb. Döyüş yoldaşlarının xatirələrinə görə, Aznaurov ən çətin məqamlarda belə soyuqqanlılığını qoruyur, qarşıya qoyulan tapşırığın yerinə yetirilməsi üçün bütün imkanlarını səfərbər edirdi. Onun sərrast atəş açmaq bacarığı və döyüş meydanında cəsarətli davranışı düşmənə ciddi itkilər verdirib.

Milli Qəhrəman, həmçinin döyüşçülərin ruh yüksəkliyinin qorunmasına mühüm təsir göstərib. O, Vətənin müdafiəsini şəxsi həyatından üstün tutaraq təhlükəli döyüş tapşırıqlarının yerinə yetirilməsində daim ön sıralarda olub. 1993-cü il aprelin 18-də Mormor kəndi yaxınlığında gedən döyüşlər zamanı İsgəndər Aznaurov igidliklə şəhid olub. O, döyüşlərdə göstərdiyi misilsiz şücaətə görə 1995-ci ilin yanvarında Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

İsgəndər Aznaurovun həyat və döyüş yolu bu gün də Vətənə sədaqətin, Hərbi Anda bağlılığın və fədakarlığın nümunəsi kimi xatırlanır. Onun adı Azərbaycan xalqının qəhrəmanlıq salnaməsində özünəməxsus yer tutur. Milli Qəhrəmanın keçdiyi döyüş yolu göstərir ki, Vətənin müdafiəsi naminə göstərilən fədakarlıq zaman keçdikcə öz əhəmiyyətini itirmir, əksinə, yeni nəsillər üçün örnəyə çevrilir.

Qəhrəmanımızın anım tədbirində Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru Yeganə Hüseynova, Türk Ağsaqqalları Birliyinin sədri Eyyaz Hüseynov, Azərbaycan Milli Qəhrəmanlarını Tanıtma İctimai Birliyinin nümayəndələri, Azərbaycanda yaşayan Axıska türklərinin nümayəndələri, Türkiyə Cümhuriyyətinin Bakıdakı səfirinin müşaviri İlhan Açık çıxış etdilər.

Çıxışlarda İsgəndər Aznaurovun həyat və döyüş yolunun Azərbaycan tarixinin mühüm səhifələrindən biri olduğu vurğulandı. Bildirildi ki, Milli Qəhrəmanın Vətənin müdafiəsi uğrunda göstərdiyi şücaət onun adını Azərbaycan xalqının yaddaşına əbədi həkk edib. Onun döyüş meydanında nümayiş etdirdiyi cəsarət, qətiyyət və fədakarlıq bu gün də gənc nəsil üçün nümunədir. Qeyd olundu ki, şəhidlərin həyat yolunun öyrənilməsi və onların qəhrəmanlığının təbliği hərbi vətənpərvərlik tərbiyəsinin mühüm tərkib hissəsidir. Çıxış edənlər belə tədbirlərin keçirilməsinin şəhidlərin xatirəsinin daim yaşadılması baxımından xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırdılar. Eyni zamanda, Azərbaycan xalqının öz qəhrəmanlarını heç vaxt unutmayacağı, onların adlarının gələcək nəsillərə də çatdırılacağı bildirildi.

İsgəndər Aznaurovun döyüş yoldaşları tərəfindən söylənilən xatirələr isə tədbir iştirakçıları üçün xüsusilə təsirli oldu. Milli Qəhrəmanın döyüş yoldaşı Sənan Quliyev onunla birlikdə keçdiyi döyüş yollarından, döyüşlər zamanı göstərdiyi cəsarətdən və şəxsi keyfiyyətlərindən danışdı. O bildirdi ki, İsgəndər Aznaurov yalnız peşəkar döyüşçü deyil, eyni zamanda, yoldaşlarına arxa-dayaq olan, çətin anlarda onları ruhlandıran və üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirən bir insan olub.



Polkovnik Cavanşir Qurbanov Milli Qəhrəmanın döyüş yolundan söz açaraq onun Azərbaycan hərb tarixində özünəməxsus iz qoyduğunu bildirdi. Qeyd etdi ki, Aznaurovun döyüş meydanında nümayiş etdirdiyi iradə və qətiyyət Vətən müdafiəçiləri üçün örnək olaraq qalır. Onun xatirəsinin yaşadılması həm şəhidin ailəsinə, həm də bütün cəmiyyətə göstərilən ehtiramın ifadəsidir.

Tədbir iştirakçıları tərəfindən vurğulandı ki, Azərbaycan xalqının qəhrəmanlıq tarixində şəhidlərin xüsusi yeri var. Müxtəlif dövrlərdə torpaqlarımızın müdafiəsi uğrunda həyatını qurban verən oğullarımızın hər biri Vətən sevgisinin ali nümunəsidir. İsgəndər Aznaurov da bu qəhrəmanlar sırasında öz adı və döyüş yolu ilə seçilir. Onun həyatının və mübarizəsinin gənc nəslə çatdırılması Vətənə məhəbbət, dövlətə sədaqət və hərbi xidmətə məsuliyyət hissinin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərlik mövzusunda musiqi nümunələrinin səsləndirilməsi ilə davam etdi.

Anım mərasimində İsgəndər Aznaurovun ailə üzvləri göstərilən diqqət və qayğıya, onun əziz xatirəsinin daim uca tutulmasına görə minnətdarlıqlarını bildirdilər.

İllər ötür, nəsillər dəyişir, lakin Vətən uğrunda canından keçənlərin adı yaddaşlardan silinmir. İsgəndər Aznaurovun qəhrəmanlığı da zamanın sınağından keçərək bu günə kimi gəlib çatıb. Onun həyat və döyüş yolu bir daha göstərir ki, Vətən qarşısında ən böyük xidmət onu qorumaq, ən uca fədakarlıq isə bu yolda canından keçməkdir. Milli Qəhrəmanın xatirəsinə həsr olunan belə tədbirlər isə həmin qəhrəmanlıq irsinin yaşadılmasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir.

**Leytenant**
**Tamilla HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Milli Qəhrəmanı, itkin şəhid Xəqani Aslanovun xatirəsi yad edilib



Avqustun 18-də Birinci Qarabağ müharibəsində itkin düşmüş şəhid, Azərbaycanın Milli Qəhrəmanı Xəqani Aslanovun doğum günü münasibətilə tədbir keçirilib.

Sabunçu rayonundakı H.Abbasov adına Maştağa Mədəniyyət Mərkəzində keçirilən tədbirdə əvvəlcə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə Milli Qəhrəman Xəqani Aslanovun həyat və döyüş yolu barədə ətraflı məlumat verilib. Bildirilib ki, Xəqani Aslanov 1955-ci il avqustun 18-də Ağdam rayonunun Şelli kəndində dünyaya göz açıb. Kəndlərindəki orta məktəbi bitirdikdən sonra atasının sənətini davam etdirmək arzusu ilə Şuşa şəhərindəki Plan Uçot Texnikumuna daxil olub. Təhsilini uğurla başa vurduqdan sonra doğma kəndlərindəki "Şelli" sovxozunda mühasib işləməyə başlayıb. Bir müddətdən sonra hərbi xidmətə çağırılan Xəqani əsgəri xidmətini uzaq Murmansk şəhərində keçib. Əsgəri xidmətdən sonra doğmalarının yanına qayıdan Xəqani Aslanov bir vaxtlar oxuduğu məktəbdə əmək təlimi müəllimi işləyib. 1990-cı illərin əvvəllərində Vətənimizin üzərini qara buludlar alanda qardaşları ilə birgə doğma torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərə qoşulub.

O, 1992-ci ildə Ağdərə rayonunun Sırxavənd kəndi istiqamətində gedən döyüşlərdə şəhid olsa da, nəşi tapılmayıb. Bu günə kimi itkin şəhid kimi qeydiyyatdadır. Onun qardaşları Hasil və Vidadi Aslanovlar 1993-cü ildə Ağdamın işğalı günü şəhadətə ucalıblar. Digər qardaşı Sadiq Aslanov isə döyüşlər zamanı ağır xəsarətlər alıb.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Aydın Mirzəzadə Birinci Qarabağ müharibəsi dövründə Azərbaycanın müstəqilliyini yenicə bərpa etdiyini, ölkənin hərbi imkanlarının məhdud olduğunu və vahid komandanlıq sisteminin tam formalaşmadığını bildirib.

Deputat qeyd edib ki, həmin ağır dövrdə Xəqani Aslanov kimi Vətənini sevən, xalqına və torpağına bağlı igidlər düşmənin qarşısında sipər olublar. O vurğulayıb ki, həmin qəhrəmanları birləşdirən əsas amillər Vətən sevgisi, qeyrət, inam və xalqın birliyi olub.

Aydın Mirzəzadə deyib ki, igid oğullar Azərbaycanın güclü ordusunun formalaşacağına və işğal altında olan torpaqlarımızın azad ediləcəyinə inanaraq Vətənin müdafiəsinə qalxıblar. Onların fədakarlığının Azərbaycanın əldə etdiyi sabitliyin, inkişafın və qüdrətin əsasını təşkil etdiyini diqqətə çatdırıb.

O vurğulayıb ki, Birinci Qarabağ müharibəsində şəhid olanların vətənpərvərliyi və qəhrəmanlığı sonrakı nəsillər üçün böyük örnəyə çevrilib. Həmin qəhrəmanların davamçıları 2020-ci ildə Vətən müharibəsində böyük şücaət göstərərək işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda mübarizə aparıblar: "44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfər Birinci Qarabağ müharibəsi şəhidlərinin vəsiyyətinin həyata keçirilməsi, onların arzuladığı Azərbaycanın ərazi bütövlüyünün bərpası deməkdir".

Deputat şəhidlərin xatirəsinin Azərbaycan xalqının yaddaşında əbədi yaşayacağını qeyd edib, Milli Qəhrəmanın nəşinin tapılaraq dini və milli adətlərə uyğun şəkildə torpağa tapşırılacağına ümidvar olduğunu deyib.

Tədbirdə çıxış edən digər natiqlər də Xəqani Aslanovun və Birinci Qarabağ müharibəsində şəhid olmuş digər qəhrəmanların Vətən qarşısındakı xidmətlərindən danışıblar.

Bildirilib ki, Birinci Qarabağ müharibəsində şəhid olanların göstərdikləri qəhrəmanlıq sonrakı nəsillər üçün böyük örnək olub. Onların Vətən sevgisi və mübarizə əzmi Azərbaycan gəncliyinin tərbiyəsində mühüm rol oynayıb.

Çıxışlarda 44 günlük Vətən müharibəsində əldə olunan Zəfərin Birinci Qarabağ müharibəsi şəhidlərinin yolunda canlarını fəda etdiyi tarixi Qələbənin gerçəkləşməsi olduğu vurğulanıb.



Şəhidin ailə üzvləri göstərilən diqqət və ehtirama görə minnətdarlığını bildiriblər, Milli Qəhrəman Xəqani Aslanovun nəşinin tezliklə tapılacağına və onun torpağa tapşırılacağına inandıqlarını qeyd ediblər.

İtkin şəhidin həyat yoldaşı Sədaqət Aslanova jurnalistlərə müsahibəsində həm Xəqani Aslanovun, həm də onun qardaşlarının vətənpərvər olduqlarını, çətin günlərdə, silah-sursatın yetmədiyi dövrlərdə öz gücləri hesabına düşmənə qan uddurduqlarını deyib: "O dövrlərdə nə Xəqanini, nə də qardaşlarını döyüşdən saxlamaq olmadı. Onlar "Qız-gəlinlərimiz əsir, girov götürülüb, cəbhəyə biz getməyək, bəs, kim getsin?" deyib irəli atıldılar. Bir ailə üç övladını o müqəddəs amal uğrunda qurban verdi".

Şəhidin oğlu Musavi Aslanov atasının Xocalı faciəsi zamanı sakinlərə kömək etdiyini, orada böyük qəhrəmanlıq göstərdiyini deyib.

"O dövrdə mənim yaşım az idi, amma hər şeyi xatırlayıram. Yadımdadır ki, əmilərimin nəşləri gətiriləndə nənəmlə babamın övladlarının itkisinə ürəkləri tab gətirmədi və onlar dünyalarını dəyişdilər. Qapımızdan dörd tabut çıxmışdı. Bir də atamın nəşinin tapılmaması vəziyyəti daha ağır və çarəsiz etmişdi. Neçə illərdir gözlərimiz yollardadır. Hər itkin şəhiddən xəbər gələndə ümidlənirik. İnanıram ki, atamın nəşi də tezliklə tapılacaq və bizim də ziyarət üçün bir məkanımız olacaq", - deyə Musavi Aslanov bildirib.

**AZƏRTAC-ın materialları əsasında**

# 3 ilin izi – "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinə nəzər

*"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təsis edilməsindən üç il ötür. Üç il əvvəl birlik təsis edilərkən qarşıya qoyulan əsas məqsəd Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsini yaşatmaq, onların ailələrinin yanında olmaq, övladlarına diqqət və qayğı göstərmək, ailələrinin problemlərinin və ehtiyaclarının aidiyyəti qurumlara çatdırılmasına, onların hüquq və mənafelərinin müdafiəsinə töhfə vermək olub. Geridə qalan üç il ərzində bu məqsədlər istiqamətində çoxsaylı tədbirlər, layihələr və sosial təşəbbüslər həyata keçirilib.*

Şəhidlərimizin doğum və anım günlərinin qeyd olunması, məzarlarının ziyarət edilməsi, onların həyat və döyüş yollarının ictimaiyyətə çatdırılması birliyin fəaliyyətində əsas istiqamətlərdən birinə çevrilib. Naxçıvan Dövlət Televiziyası ilə əməkdaşlıq çərçivəsində doğum günü olan şəhidlərimizin həyat və döyüş yolunu əks etdirən videoçarxların monitorlarda nümayişi təşkil olunub.

Əlamətdar günlərlə bağlı tədbirlərin keçirilməsi də artıq ənənə halını alıb. 20 Yanvar – Ümumxalq Hüzn Günü, Aprel döyüşləri və Sədərək döyüşlərinin ildönümləri ilə bağlı anım tədbirləri təşkil olunub, şəhidlərimizin qəhrəmanlıq yolu yad edilib. Aprel döyüşlərinin ildönümü münasibətilə Naxçıvan Dövlət Universiteti ilə birgə "Aprel döyüşləri – Böyük Zəfərin başlanğıcı" adlı tədbir keçirilib. Universitetdə ilk dərs günlərində şəhid valideynlərinin iştirakı ilə açıq dərslər təşkil olunub. Bu görüşlər tələbələrin şəhidlərimizin həyat və mübarizə yolu ilə daha yaxından tanış olmasına xidmət edib.

Sədərək döyüşlərinin ildönümü münasibətilə silsilə anım tədbirləri də keçirilib. Şərur və Sədərək rayonlarının Şəhidlər xiyabanları ziyarət olunub, döyüşlərdə şəhid olan qəhrəmanlarımızın xatirəsi ehtiramla yad edilib. Müxtəlif rayonlarda təşkil olunan tədbirlərdə Sədərək döyüşlərinin tariximizdəki yeri və şəhidlərimizin qəhrəmanlığı bir daha diqqətə çatdırılıb.

Şəhid ailələri və övladları üçün bayram və istirahət proqramlarının təşkili də birliyin fəaliyyətində ənənəvi xarakter alıb. Novruz bayramı münasibətilə şəhid övladları üçün bayram şənlikləri keçirilib, onların sevincinə şərik olunub. Şəhid övladlarının asudə vaxtlarının səmərəli təşkili məqsədilə Ağbulaq İstirahət Mərkəzinə səfər, eləcə də Ərəfsədə yerləşən "Aquamar" istirahət mərkəzinə tur təşkil olunub.

Onların Azərbaycanın tarixi Zəfər məkanları ilə tanışlığına da diqqət göstərilib. 70 nəfər şəhid ailəsi və övladının Qarabağın incisi Şuşaya səfəri iştirakçılar üçün həm mənəvi, həm də tarixi baxımdan yaddaqalan olub.

Əlahiddə Ümumqoşun Ordu ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində bir sıra birgə tədbirlər keçirilib. Şəhid ailələri və övladlarının hərbçilərlə görüşləri təşkil olunub, onların hərbi həyatla tanışlığına və vətənpərvərlik ruhunun gücləndirilməsinə imkan yaradılıb.

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təsisçisi və sədri tərəfindən gənclərlə mütəmadi görüşlər keçirilib. Görüşlərdə şəhidlərimizin həyat və döyüş yolu haqqında, həmçinin vətənpərvərlik və milli-mənəvi dəyərlər barədə fikir mübadiləsi aparılıb. Könüllü gənclərin birliyin keçirdiyi tədbirlərdə fəal iştirakı təmin edilib.

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı ilə Naxçıvandan olan şəhid ailələri və döyüşlərdə sağlamlığını itirənlərin Türkiyənin İğdır əyalətində türkiyəli şəhid ailələri və döyüşlərdə yaralananlarla görüşü təşkil olunub. Görüşdə qarşılıqlı fikir mübadiləsi aparılıb. Şəhid ailələri və döyüşlərdə yaralananlarla əlaqələrin yaradılması ön plana çıxardılıb.

2026-cı ildə də birliyin fəaliyyəti əvvəlki illərdə olduğu kimi, müxtəlif istiqamətlər üzrə də davam etdirilib.

Sədərək döyüşlərində qəhrəmancasına döyüşərək şəhid olmuş gənclərimizin xatirəsinin yad olunması məqsədilə "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin, Şərur rayonu və Sədərək rayonu İcra Hakimiyyəti orqanlarının birgə təşkilatçılığı ilə anım tədbiri keçirilib.

May və iyun aylarında Azərbaycanın mədəniyyət və incəsənət nümayəndələrinin Naxçıvana səfərləri zamanı onların müraciəti əsasında şəhid ailələri ilə görüşləri təşkil olunub. Görüşlərdə şəhid ailələri ilə səmimi fikir mübadiləsi aparılıb, qəhrəmanlarımızın həyat və döyüş yolu barədə söhbətlər edilib.

İyul ayında isə şəhid övladlarının intellektual və sosial inkişafına yönəlmiş "Şəhid övladlarının intellektual inkişaf proqramı" layihəsi çərçivəsində Ağbulaq İstirahət Mərkəzində yay düşərgəsi təşkil olunub. Düşərgədə şəhid övladları və şəhid xanımları üçün intellektual və yaradıcı fəaliyyətlər, komanda oyunları, idman yarışları, maarifləndirici görüşlər və müxtəlif istirahət proqramları keçirilib. "Şəhid övladları ilə gələcəyə baxış" mövzusunda görüş təşkil olunub, onların təhsili, gələcək hədəfləri və şəxsi inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb. Layihə çərçivəsində Batabat Astrofizika Rəsədxanasına və Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkına ekskursiyalar da təşkil olunub.

Üç il ərzində həyata keçirilən tədbir və layihələr birliyin fəaliyyətinin yalnız bir hissəsidir. Bu fəaliyyətin arxasında dayanan əsas məqsəd isə dəyişməyib: şəhidlərimizin adını və əziz xatirəsini yaşatmaq, şəhid ailələrinin yanında olmaq, onların övladlarına diqqət və qayğı göstərmək.

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin fəaliyyəti hər zaman müxtəlif sosial şəbəkə və media platformaları vasitəsilə insanların diqqətinə çatdırılır.

Geridə qalan üç il göstərib ki, şəhid ailələrinin yanında olmaq yalnız müəyyən günlərdə onları xatırlamaq deyil, daim davam edən mənəvi məsuliyyətdir. Bu məsuliyyət şəhid ailələrinin sevincinə şərik olmaqdan, övladlarının inkişafına dəstək göstərməkdən və onların hər zaman diqqətdə saxlanılmasından ibarətdir; üç illik fəaliyyətə nəzər salarkən qarşıda daha böyük məsuliyyət və yeni işlərin dayandığını aydın görürük və "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyi bundan sonra da şəhidlərimizin əziz xatirəsinin yaşadılması, şəhid ailələrinin diqqət və qayğı ilə əhatə olunması, onların övladlarının inkişafına dəstək göstərilməsi istiqamətində fəaliyyətini əzmlə davam etdirəcək.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

# Mətbuat Şurası Rusiyanın informasiya məkanında Azərbaycana qarşı təhdidləri pisləyib

*Rusiyanın bəzi kütləvi informasiya vasitələrində Azərbaycan dövlətinə, xalqına, ölkə rəhbərliyinə və görkəmli şəxsiyyətlərimizə qarşı nalayiq, təhdid xarakterli və təhqiramiz materiallar və fikirlər paylaşılmaqdadır.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Mətbuat Şurası bununla bağlı bəyanat yayıb.

Bəyanatda bildirilib: "Hesab edirik ki, bu, sivil jurnalistika prinsiplərinə, etik normalara və insani dəyərlərə tamamilə ziddir.

Təəssüf ki, Rusiyanın informasiya məkanında belə hallar ardıcıl şəkildə müşahidə edilir.

Azərbaycan Mətbuat Şurası bu kimi halları Azərbaycanla Rusiya arasındakı ikitərəfli münasibətlərin ruhuna, həmçinin media əlaqələrinə tamamilə zidd hesab edir.

Ayrıca qeyd etmək istərdik ki, Azərbaycan mediası həmişə qonşu ölkələr, o cümlədən Rusiya ilə bağlı məsələlərə həssas münasibəti ilə seçilib, peşə prinsiplərindən kənar fikir və iddialara yer verməyib.

Buna görə də Rusiyanın informasiya müstəvisində belə xoşagəlməz halların yaşanması Azərbaycan ictimaiyyətində dərin təəssüf və əsaslı narazılıq doğurmaqdadır.

Azərbaycan Mətbuat Şurası baş verən halları qətiyyətlə pisləyir. Şura, eyni zamanda, Rusiyanın media ictimaiyyətinə, bütövlükdə cəmiyyətinə müraciət edərək, Azərbaycan-Rusiya media əlaqələrini, ümumən xalqlar arasında dostluq münasibətlərini pozmağa yönəlmiş hallarla bağlı ciddi tədbir görülməsinə çağırır.

Mətbuat Şurası bir daha bəyan edir ki, Azərbaycan dövlətinə, xalqına və onun görkəmli nümayəndələrinə qarşı təhqiramiz fikirlər və təhdid xarakterli iddialar yolverilməzdir.

Rusiya informasiya məkanının sərt qanunvericilik tənzimlənməsi şəraitində belə materialların sistemli şəkildə ortaya çıxması Rusiya Federasiyasının dövlət siyasəti səviyyəsində onların təsdiqinə bərabərdir.

Mətbuat Şurası belə ifadələrə yol verən şəxslərə hüquqi məsuliyyət daşıdıqlarını bir daha xatırladır".

# "Vətən qarşısında xidməti borcumuzu ləyaqətlə, şərəflə başa vuracağıq"

(Əvvəli 5-ci səhifədə)

Əmim Fəqan Yaqubov Birinci Qarabağ müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Onun haqqında ailəmdən eşitdiklərimlə böyümüşəm. Ona görə də bu formanı geyinmək, Vətən qarşısında and içmək mənim üçün sadəcə hərbi xidmət deyil, vətəndaşlıq və övladlıq borcudur.

Mən istəyirəm ki, xidmətimlə ailəmin mənə olan etimadını layiqincə doğruldum, əmimin ruhunu daim uca tutum.

Qarşıda məni uzun bir xidmət yolu gözləyir, bu yolu uğurla başa vurub, ailəmin yanına qürurla qayıdacağıma inanıram.

**Əsgər Rəhim Məhərrəmov:** Azərbaycan Texniki Universitetində "Marketinq" ixtisası üzrə təhsil almışam. Bu gün həyatımda xüsusi yeri olan, qürur və həyəcan hissi keçirdiyim günlərdən biridir. Azərbaycan əsgəri kimi Vətən qarşısında Hərbi Andı qəbul etmək mənim üçün böyük şərəf olmaqla yanaşı, üzərimə düşən məsuliyyəti daha dərindən hiss etməyimə səbəb oldu. Hərbi Andı içməklə Vətən qarşısında üzərimizə böyük məsuliyyət götürdüyümüzü bir daha dərk etdik. Xidmət müddətində əsas məqsədim hərbi bilik və bacarıqlarımı artırmaq, verilən tapşırıqlara məsuliyyətlə yanaşmaq və hərbi intizama ciddi əməl etməkdir. Komandirlərimin tövsiyə və tapşırıqlarından düzgün nəticə çıxararaq özümü daim inkişaf etdirmək istəyirəm. Burada qazandığım təcrübənin, öyrəndiyim intizam və məsuliyyət hissinin gələcək həyatımda da mənə böyük fayda verəcəyinə inanıram. Ailəmdən və doğmalarımdan uzaqda olmağım asan deyil. Lakin bilirəm ki, onlar mənimlə fəxr edir, xidmətimi daha məsuliyyətlə davam etdirmək üçün mənə güc verirlər. İstəyirəm ki, xidmət müddətində göstərdiyim nümunəvi davranışımla və Vətənə sədaqətimlə onların etimadını doğruldum. Bu gün verdiyim sözə sadiq qalaraq üzərimə düşən vəzifələri layiqincə yerinə yetirmək, xidmətimi şərəflə başa vurmaq və ailəmin yanına alnıaçıq, başıuca qayıtmaq istəyirəm. Buradan bütün dostlarıma da salamlarımı göndərirəm. Onlar da bir il, il yarım sonra ordu sıralarına qatılacaqlar. Əminəm ki, onların da Hərbi And içəcəyi gün mənim üçün olduğu kimi, onlar üçün də qürurverici və unudulmaz olacaq.



**Matros Amin Xəlilov:** Bu gün bizim həyatımızda ən əlamətdar günlərdən biridir. Biz gənc matroslar Hərbi Andı qəbul etməklə müstəqil Azərbaycan Respublikasının ordu sıralarına daxil olub, Vətənimiz Azərbaycana və onun xalqına sadiq qalacağımıza təntənəli surətdə and içdik. İçdiyimiz and həyatımızın ən qürurverici və şərəfli andıdır. Ümummilli Lider Heydər Əliyevin qurucusu və memarı olduğu müasir Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Bu gün həmin ordunun sıralarında dayanmaq matros yoldaşlarımla birgə bizə qürur hissi yaşadır.

Söz veririk ki, ordumuzun qüdrətlənməsi və inkişafı naminə öz səylərimizi səfərbər edərək, komandirlərimizin verdiyi əmrləri sözsüz və dəqiq yerinə yetirəcəyik. Vətənimiz Azərbaycanın milli mənafeyini qoruyacaq və üçrəngli dövlət bayrağımızın daima yüksəklərdə qürurla dalğalanması üçün canımızı və qanımızı əsirgəməyəcəyik.




Antik dövrdə döyüşlərin nəticəsinə qoşunun düzülüşü, döyüşçülərin nizamlı hərəkəti və qarşılıqlı müdafiənin təşkili mühüm təsir göstərirdi. Qoşunun necə düzülməsi, döyüşçülərin nizamlı hərəkəti və qarşılıqlı müdafiənin təşkili də döyüşün nəticəsinə ciddi təsir göstərirdi. Qədim Yunanıstanın hərb tarixində formalaşan falanqa düzülüşü məhz belə bir döyüş anlayışının məhsulu idi. Sıx cərgələrdə düzülən ağır silahlı piyadaların yaratdığı bu quruluş uzun müddət antik dünyanın əsas piyada döyüş sistemlərindən biri kimi istifadə olunmuşdur.

Falanqanın əsasını hoplit adlanan ağır silahlı piyadalar təşkil edirdi. Onlar qalxan, nizə və qılıncla, dövrün imkanlarından asılı olaraq müxtəlif müdafiə vasitələri ilə təchiz olunurdular. Döyüşçülər bir neçə cərgə şəklində, birbirinə yaxın düzülür və vahid döyüş xətti yaradırdılar. Qalxanın yerləşməsi döyüşçünün özünü qorumaqla yanaşı, yanında dayanan silahdaşının müdafiəsinə də müəyyən imkan verirdi. Beləliklə, ayrı-ayrı əsgərlərin mövqeyi bütün sıranın dayanıqlığı ilə əlaqələndirilirdi.Falanqanın əsas üstünlüyü onun sıx və nizamlı döyüş xətti yaratmasında idi. Döyüşçülər öz mövqelərini qoruyaraq hərəkət edir, ön cərgə düşmənlə təmasda əsas yükü daşıyır, arxadakı cərgələr isə düzülüşün saxlanılmasına kömək edirdi. Bu sistemdə fərdi təşəbbüsdən daha çox ümumi nizamın qorunması əhəmiyyət daşıyırdı. Bir döyüşçünün sıradan ayrılması yalnız onun öz mövqeyinə deyil, yaxınlığındakı digər döyüşçülərin müdafiəsinə də təsir göstərə bilərdi. Bununla belə, falanqa bütün döyüş şəraitləri üçün universal taktika deyildi. Açıq və nisbətən düz ərazi sıx cərgələrin qorunması üçün əlverişli idi. Kələkötür relyef, təbii maneələr və cərgələrin parçalanması isə onun əsas üstünlüyünü zəiflədə bilərdi. Cinahlardan və arxadan hücumlar da falanqa üçün ciddi təhlükə yaradırdı. Buna görə taktikanın uğurlu tətbiqi yalnız piyadaların hazırlığından deyil, ərazinin düzgün qiymətləndirilməsindən və qoşunun idarə olunmasından da asılı idi. Falanqa hərbi düzülüşü zaman keçdikcə dəyişərək yeni xüsusiyyətlər qazandı. Bunun ən mühüm nümunələrindən biri Makedoniya ordusunun təcrübəsi idi. Burada daha uzun nizə sarissa tətbiq edilərək falanqanın ön istiqamətdəki döyüş imkanları genişləndirildi. Uzun nizələrin bir neçə cərgədə yerləşdirilməsi qarşı tərəfin yaxın məsafəyə daxil olmasını çətinləşdirirdi. Sarissanın istifadəsi döyüşçülərin təchizatında və düzülüşündə də dəyişikliklər yaratmışdı.

Makedoniya təcrübəsinin üstünlüyü yalnız uzun nizələrin tətbiqi ilə məhdudlaşmırdı. Ağır piyadalarla yanaşı, süvari və yüngül silahlı qoşunlardan da istifadə olunurdu. Müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyəti döyüş meydanında daha geniş imkanlar yaradırdı. Buna görə Makedoniya ordusunun uğurunu yalnız falanqanın üstünlüyü ilə izah etmək düzgün olmaz. Falanqa daha geniş hərbi sistemin mühüm tərkib hissəsi idi.Falanqanın döyüş zamanı necə tətbiq edilməsi ilə bağlı bəzi məsələlər bu gün də hərb tarixçiləri tərəfindən müzakirə olunur. Yeni tədqiqatlar məsələyə fərqli yanaşmalar ortaya qoysa da, qədim döyüşlərin bütün xüsusiyyətləri vahid model əsasında izah etmək mümkün deyil. Zaman keçdikcə daha çevik hərəkət edən və müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyətinə əsaslanan hərbi düzülüşlər ön plana çıxdı. Falanqanın gücü onun sıxlığında və nizamında olduğu kimi, zəifliyi də müəyyən mənada burada idi. Düzülüş qorunduqda möhkəm döyüş xətti yaradan bu sistem nizamsız olduqda əvvəlki üstünlüyünü itirirdi. Bu taktika döyüş meydanında nizamın, qarşılıqlı müdafiənin və vahid hərəkətin əhəmiyyətini göstərən mühüm hərbi düzülüş nümunələrindən biridir. Eyni zamanda, onun məhdudiyyətləri sübut edir ki, heç bir döyüş düzülüşü bütün şəraitlər üçün universal deyil. Ərazinin xüsusiyyətləri, düşmənin fəaliyyəti, qoşunların hazırlıq səviyyəsi və komandanlığın qərarları taktikanın nəticəsini müəyyən edən əsas amillər olaraq qalır.

Falanqanın keçdiyi inkişaf yolu göstərir ki, döyüş taktikası dəyişən şəraitə uyğun olaraq daim yenilənir. Qədim yunan hoplitlərindən Makedoniya ordusunun daha mürəkkəb döyüş sisteminə qədər keçən bu yol hərbi düşüncənin inkişafını əks etdirir. Falanqa da, məhz bu tarixi prosesin mühüm mərhələlərindən biri kimi bu günədək hərb tarixinin öyrənilən taktiki sistemləri sırasında yer alır.

**Emil MURADLI**
**“Azərbaycan Ordusu”**

# Xəbərlər: hadisələr, faktlar

### Moskva vilayətində məktəbdə qumbaranın partlaması nəticəsində dörd müəllim xəsarət alıb



Moskva vilayətinin Şolkovo şəhərində məktəbdə keçirilən təlimlər zamanı səs qumbarasının partlaması nəticəsində dörd müəllim xəsarət alıb.

Hadisə Serkovo kəndindəki təhsil müəssisəsində ümumrusiya antiterror təlimləri zamanı baş verib.

Fövqəladə vəziyyət zamanı görüləcək tədbirlərin məşq edilməsi zamanı məktəbin pəncərəsindən straykbol qumbarası atılıb. Qumbara taxta tirə dəyərək partlayıb. Nəticədə ətrafa yayılan taxta qırıntılarından müəllimlər xəsarət alıblar.

Faktla bağlı araşdırma aparılır.

### Rusiya Xarkov vilayətinə raket zərbəsi endirib, 10 mülki şəxs həlak olub



Avqustun 18-də Rusiya qoşunları Xarkov vilayətinin Peçeneqi qəsəbəsinə raket zərbəsi endirib. Son məlumatlara görə, 10 mülki şəxs həlak olub.

Bu barədə Xarkov vilayəti dövlət administrasiyasının rəhbəri Oleq Sinequbov Telegram kanalında məlumat verib.

Onun sözlərinə görə, daha 8 dinc sakin yaralanıb. Onlara zəruri tibbi yardım göstərilib.

Vilayət dövlət administrasiyasının rəhbəri əlavə edib ki, Rusiyanın hücumu nəticəsində 10 evə, kafe, poçt şöbəsi və mağazaya, həmçinin 7 avtomobilə ziyan dəyib.

### Venesuelada zəlzələ nəticəsində ölənlərin sayı 6438-ə çatıb



Venesuelada baş vermiş zəlzələ nəticəsində ölənlərin sayı 6438-ə çatıb.

Bu barədə ölkə parlamentinin spikeri Xorxe Rodrigez sosial media hesabında yazıb. O, yaralıların sayının 16 min 740 nəfər olduğunu qeyd edib. Rodrigez bildirib ki, fəlakətin ən çox insan tələfatına və dağıntıya səbəb olduğu La Quayra ştatında hökumət indiyə qədər 335 evi qanuni sahiblərinə təhvil verib, 59 min 109 evi ziyana görə qiymətləndirib. Həmin evlərdən 34 min 680-ni yaşayış üçün yararlı, 13 min 733-ü məhdud istifadə üçün yararlı, 10 min 696-sı isə “yüksək riskli” hesab edilib.

Xatırladaq ki, iyunun 24-də Venesuelada 7,2 və 7,5 bal gücündə 2 təkan qeydə alınıb.

### Kaliforniyada meşə yanğını: Sakinlər təxliyə edilir



Kaliforniya ştatının San Dieqo şəhərinin şimalında meşə yanğını baş verib.

Hakimiyyət orqanları bəzi ərazilərin sakinləri üçün təxliyə əmri verib.

Yerli yanğınsöndürmə rəsmiləri bildiriblər ki, "Sorrento” yanğını 53 hektar əraziyə yayılıb və onun 15 faizi lokallaşdırılıb.

Yanğınla mübarizədə 160 yanğınsöndürən və 54 texnikanın iştirak etdiyi bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Avropa çempionatında medal qazanan paracüdoçular Vətənə qayıdıblar



Almaniyanın Heydelberq şəhərində keçirilmiş paracüdo üzrə Avropa çempionatında uğur qazanan Azərbaycan milli komandasının üzvləri Vətənə qayıdıblar.

1 qızıl və 3 bürünc medal əldə edən paracüdoçuları Heydər Əliyev Beynəlxalq Aeroportunda ailə üzvləri və media nümayəndələri qarşılayıblar.

Azərbaycan yığmasının heyətində J1 kateqoriyası üzrə +95 kiloqram çəki dərəcəsində çıxış edən İlham Zəkiyev 10-cu dəfə Avropa çempionu olub. Təcrübəli idmançı ötən il qazandığı titulunu qoruyub.

Dürsədəf Kərimova (+70 kiloqram, J2), Xatirə İsmiyeva (+70 kiloqram, J1) və Saleh Sultanov (81 kiloqram, J1) isə turniri bürünc medalla başa vurublar.

Saleh Sultanov üçün bu, Avropa çempionatında qazandığı ilk medal olub.

### Azərbaycan boksçusu Avropa çempionatında yarımfinala vəsiqə qazanıb



Azərbaycan boksçusu Banuçiçək Nəsirli Serbiyanın Loznitsa şəhərində keçirilən U-19 Avropa çempionatında yarımfinala yüksəlib.

48 kiloqram çəkidə mübarizə aparan milli üzvü 1/4 finalda Katarjina Qornisieviçlə (Polşa) qarşılaşıb.

Nəsirli rəqibinə 3:2 (30:27, 28:29, 28:29, 30:27, 29:28) hesabı ilə qalib gəlib. O, yarımfinala vəsiqə qazanmaqla özü üçün azı bürünc medalı təmin edib.

Boksçumuz avqustun 20-də final uğrunda Ellen Coysla (İrlandiya) döyüşəcək.

### “Neftçi” serbiyalı futbolçu ilə müqavilə imzalayıb



“Neftçi” növbəti transferini həyata keçirib. Klubdan verilən məlumata görə, serbiyalı hücumameyilli yarımmüdafiəçi Draqolyub Saviç “ağ-qaralar”ın formasını geyinəcək. 25 yaşlı futbolçu ilə 2+1 il müddətinə müqavilə imzalanıb.

Əsasən sol vinger mövqeyində çıxış edən Saviç yüksək sürəti, texnikası, hər iki ayağı ilə dəqiq ötürmələri və zərbələri ilə seçilir, komandanın oyun sistemindən asılı olaraq sağ və sol cinahlarda oynaya bilir.

O, Serbiya, Avstriya və Latviya klublarında çıxış edib. RFS klubu ilə Latviya çempionatının (2023, 2024) və kubokunun (2024) qalibi olub.

Sonuncu komandası TSC ilə ötən mövsüm Serbiya Superliqası və kubok yarışlarında 36 matçda meydana çıxıb, 6 qol vurub və 3 məhsuldar ötürmə müəllifi olub. 2026/2027-ci illər mövsümündə isə Serbiya çempionatının ilk 3 turunda bütün oyunlarda komandasının formasını geyinib, 1 qol ötürməsi ilə yadda qalıb.

**AZƏRTAC-ın materialları əsasında**

Quliyev Şərəf Mübariz oğluna verilmiş MV № 098435 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Emil MURADLI | Lisenziya № 361 Sifariş № 713 Nüsxə 3653 |